# HƏSƏNOV MƏHƏMMƏD ƏLƏSGƏR OĞLU



Həsənov Məhəmməd 9 avqust 1959-cu ildə Goranboy rayonunun Qarasüleymanlı kəndində anadan olmuşdur. 1976-cı ildə rayonun 3 saylı orta məktəbi bitirmişdir. 1977-ci ildə hərbi xidmətə çağırılmış, 1979-cu ildə Murmanskda hərbi xidmətini başa vurduqdan sonra Kiyev şəhərinə gəlmişdir. 1980-ci ildə Kiyev Radio Elektronika Texnikumuna daxil olmuşdur. 1984-cü ildə texnikumu bitirərək, orada "Kommunist" zavodunda çalışmışdır. Sonra vətənə qayıdaraq, 1989-cu ildə Axundov adına APDİ-nə (indiki Slavyan Universiteti) daxil olmuşdur. 1991-ci ildə könüllü olaraq vətənin müdafiəsinə qalxmışdır. O, bölük komandiri təyin edilir. Bir qədər sonra isə 1 saylı ərazi özünümüdafiə batalyonunun komandiri olur. 1991-ci il dekabrın 9-u Topdan kəndi erməni yaraqlılarının əlinə keçir. Məhəmməd özü ilə 33 döyüşçü götürür və onları ayrıayrı hissələrə bölərək Topdan kəndinə hücuma keçirlər. Onlarla düşmən məhv edilir və kənd mərdliklə geri alınır. H.Məhəmməd eyni zamanda Mənəşli, Erkəc, Rus Borisi, Erməni Borisi, Qaraçinar, Talış kəndlərində düşmənə qarşı mübarizədə rəşadət nümayiş etdirmişdir. Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı Fərmanı ilə Həsənov Məhəmməd Ələsgər oğlu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. 1993-cü ildə Bakı Ali Komandirlər Məktəbini bitirmiş, Polkovnik-leytenant rütbəsinədək yüksəlmişdir. 1994-2000-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında baş müəllim vəzifəsində çalışmışdır. 2002-ci ildən Goranboy rayonunun Veysli kənd orta məktəbinin, daha sonra isə Goranboy şəhər 3 saylı orta məktəbinin direktoru vəzifəsində çalışmışdır. Milli Qəhrəman Məhəmməd Həsənov 2020-ci il noyabr ayının 9-da yaşadığı Goranboy rayonu ərazisində ağır qəzaya düşmüş və 18 noyabrda xəstəxanada vəfat etmişdir.